2020-Cİ İL ÜÇÜN 20 PRAKTİKİ NƏTİCƏ
Monitorinq – 2020-ci ilin fevral ayına qədər görülən işlərin vəziyyəti

2017-ci ildə keçirilən Şərq Tərəfdaşlığı (ŞT) Brüssel Sammitində ŞT-də yaşayan vətəndaşlara gözəçarpan faydalarla nəticələnən islahatlara dair iddialı fəaliyyət planı qismində "2020-ci il üçün 20 praktiki nəticə" adlı sənəd qəbul olunub.

Üzv dövlətlərə və tərəfdaş ölkələrə prosesi istiqamətləndirməyə kömək etmək üçün EEAS (Avropa Xarici Fəaliyyət Xidməti) və Komissiya mütəmadi olaraq həm nailiyyətləri, həm də əlavə səylərin tələb oluna biləcəyi sahələri qeyd edərək nəticələrin icrasını izləyir.

*Bu sənəddə həm "2020-ci il üçün 20 praktiki nəticənin" icrası, həmçinin **2020-ci ilin fevral ayına qədər əldə olunmuş konkret nəticələr barədə yenilənmiş ümumi məlumatlar** təqdim olunub. Sənəddə yeni öhdəliklər yoxdur. Sənəddə qeyd olunmuş yekun nəticələr EEAS və Komissiyanın cəlb olunduğu daxili monitorinq prosesinə əsaslanır və ŞT-nin təşkilati strukturunun (platformalar və qruplar daxil olmaqla) iclaslarının nəticələri nəzərə alınır. Sənəddə əsaslı daxili monitorinq nəticəsində əldə edilmiş son dərəcə mühüm yekun nəticələr vurğulanır. Əvvəlki hesabatda 2019-cu ilin mart ayına qədər əldə olunan nəticələr əks olunmuşdur.*

HƏRTƏRƏFLİ İQTİSADİYYAT İDARƏÇİLİK BAĞLANTI CƏMİYYƏT

Müəyyən irəliləyiş | Hazırlanır | Tamamlanıb

HƏRTƏRƏFLİ PRAKTİKİ NƏTİCƏLƏR

ƏSAS NAİLİYYƏTLƏR

1 Vətəndaş cəmiyyəti təşkilatları ilə daha sıx qarşılıqlı əlaqə

- ✓ **Bacarıqların artırılmasına dair fəaliyyətlər hazırda bütün** tərəfdaş ölkələrdə davam etməkdədir. Bu fəaliyyətlər **yerli təşkilatlara**, **vətəndaşları cəlb etməyin və yerli resursların səfərbər edilməsinin innovativ yollarına** yönəlmişdir.
- ✓ **Gənc vətəndaş cəmiyyəti liderlərinə məxsus 60-dan artıq təqaüd layihəsinə qrant ayrılıb və** bu qrantlardan 200-ə yaxın gənc lider faydalanmışdır.
- ✓ Bütün ŞT ölkələrində **vətəndaş cəmiyyətinin monitorinqi üzrə pilot vasitə hazırlanıb.**
- ✓ Aİ, ŞT-nin yenidən qurulmuş təşkilati strukturu çərçivəsində siyasi dialoqu yaxşılaşdırmaq üçün **Vətəndaş Cəmiyyəti Forumu** ilə qarşılıqlı əlaqələrini gücləndirib.

2 Gender bərabərliyinin və ayrıseçkiliyə yol verilməməsinin gücləndirilməsi

- ✓ **Gender fəaliyyət planları Ermənistan, Belarus, Gürcüstan, Moldova və Ukrayanda** yenilənmişdir.
- ✓ **Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova və Ukrayna** artıq gender bərabərliyinə dair spesifik qanunlar tətbiq edib.
- ✓ **Bütün altı tərəfdaş ölkədə** məişət zorakılığına qarşı spesifik qanunvericilik tətbiq edilib, **Ermənistan və Ukraynada** isə qanunvericiliyi yeniləmək üçün növbəti düzəlişlər edilir.
- ✓ **Qadınlar tərəfindən idarə olunan təxminən 7250 KOM-a** 60 milyon avrodan artıq maliyyə vəsaiti ayrılmışdır və təkcə 2018-ci ildə **290-dan artıq sahibkar qadın** EU4Business təşəbbüsü çərçivəsində təlimlərdə iştirak etmişdir.
- ✓ **Bərabərlik haqqında qanunvericilik Ermənistan** və **Moldovada** nəzərdən keçirilir, **Belarusda** isə Avropa standartlarına uyğun bərabərlik haqqında qanun üçün texniki-iqtisadi əsaslandırma aparılır.

3 Strateji rabitənin gücləndirilməsi və müxtəlif və müstəqil kütləvi informasiya vasitələrinə dəstək

- ✓ Aİ, **"birlikdə daha güclü" (stronger together)** kimi hərtərəfli çağırışı ilə qurumun düzgün tanınması, mesajlarının çatdırılması, əyani fəaliyyətləri və daha davamlı təbliğatını həyata keçirmişdir. **Gənclərin cəlb olunduğu təbliğat işi gücləndirilib** və Aİ və onun dəyərlərinin regionda təşviqi məqsədilə **730 Gənc Avropa Səfiri** təyin edilmişdir.
- ✓ Aİ-nin fəaliyyətlərinə dair **məlumat və təbliğat xarakterli kampaniyalar bütün tərəfdaş ölkələrdə** icra olunmağa başlayıb. Misal üçün, 2019-cu ildə ŞT-nin 10 illiyi **(#Eap10)** münasibətilə bütün ŞT ölkələrində tədbirlər keçirilib. Ermənistanda (EU4Armenia), Azərbaycanda (EU4YOU), Belarusda (Neighbours Inspire), Gürcüstanda (EU4Georgia), Moldovada (EU-Moldova: Stronger Together) və Ukraynada (Moving Forward Together) kampaniyalar təşkil olunmuşdur.
- ✓ Aİ-nin Şərq Qonşuluğu layihəsinin 2019-cu ildə keçirdiyi sorğuya əsasən regionda yaşayan **vətəndaşların 67%-i Aİ ilə ölkəsi arasında əlaqələr barədə müsbət təsəvvürə malikdir** (bu rəqəm 2017-ci illə müqayisədə 6% yüksəlmişdir). **ŞT vətəndaşlarının 65%-i** (bu rəqəm 2017-ci illə müqayisədə 6% yüksəlmişdir) "**Aİ-nin vətəndaşların gündəlik həyatına gözəçarpan dərəcədə mənfəət təmin etdiyinə"** əmindirlər. ŞT vətəndaşlarının **58%-i Aİ-ni ən çox etibar edilən xarici təşkilat** hesab edir.
- ✓ Aİ-nin medianın müstəqilliyinə töhfə verən jurnalistlərin savadlılığı və jurnalistika bacarıqlarına dair **təlimlərində** bu günə qədər **850-dən artıq jurnalist və media mütəxəssisi** iştirak etmişdir.

HƏRTƏRƏFLİ PRAKTİKİ NƏTİCƏLƏR

FƏALİYYƏT PRİORİTETLƏRİ

- Vətəndaş cəmiyyətinin inkişafının təşviqi
- Müstəqil medianın təşviqi
- Beynəlxalq sənədlərin ratifikasiyası və regionda gender bərabərliyi və ayrıseçkiliyə yol verilməməsi ilə bağlı müvafiq qanunvericiliyin tətbiqi

UĞUR HEKAYƏLƏRİ

#EaP10 – birlikdə bir-birimiz ilə ünsiyyət qurduğumuz zaman

2019-cu il ərzində Aİ, **ŞT-nin 10 illiyi** çərçivəsində bu təşəbbüsün əsas nailiyyətləri barədə məlumat kampaniyası keçirib. Fevral ayında Brüsseldə və altı tərəfdaş ölkədə 100 "Gənc Avropa səfiri" tərəfindən təşkil edilmiş fləşmob ilə gənclərin cəlb olunması və audiovizual məzmunun diqqət mərkəzində olduğu kampaniyaya start verilib. Mayda təşkil olunan Avropa Günlərinin təntənəli mərasimləri və Brüsseldə baş tutan yüksək səviyyəli tədbirlər ilə kampaniya zirvə nöqtəsinə çatmışdır. Bu tədbirlər bütöv ŞT regionunda medianın diqqətini cəlb etmişdir. Ümumilikdə, ŞT regionunda 43 milyondan çox insan televiziya, radio və xəbər saytları, 2,1 milyon insan isə sosial şəbəkələr vasitəsilə cəlb olunub.

Daha yaxşı və inklüziv cəmiyyət üçün əməkdaşlıq

2019-cu ildə Aİ-nin dəstəyi ilə Gürcüstanın paytaxtı Tbilisidə **ŞT Vətəndaş Cəmiyyəti hakatonu** keçirilib. Onun məqsədi vətəndaşların iştirakını təşviq etmək və daha yaxşı cəmiyyət üçün fikir mübadiləsi aparmaq olmuşdur. Tədbirə bütün altı ŞT ölkəsindən 70 vətəndaş cəmiyyəti fəalı və İT mütəxəssisi qatılıb və innovasiyalar vasitəsilə sosial problemlərin həlli məqsədilə İT vasitələri hazırlayıblar. Ümumilikdə 20 layihə ideyası hazırlanıb və onlardan üçü 2019-cu il üzrə Vətəndaş Cəmiyyəti üçün Rəqəmsallaşdırma Mükafatına layiq görülüb. 2019-cu il üzrə mükafatın qalibi, "PROVIDNIK" adlı interaktiv xəritə layihəsinin müəllifi Anna Kris olmuşdur. Bu layihə məhdud hərəkət qabiliyyəti olan insanlara Ukrayna şəhərlərində daha asan və daha təhlükəsiz marşrutlara çıxışını təmin edir və onların gündəlik fəaliyyətlərini həyata keçirmələrinə kömək edir. *"Mən sadəcə əlçatan və inklüziv infrastrukturu ifadə etməklə yanaşı, cəmiyyətin bütün təbəqələri arasında qarşılıqlı əlaqə yarada biləcək xəritə yaratmaq istədim"*, - deyə Anna Kris bildirib. Annanın yaratdığı interaktiv xəritənin 2020-ci ilin aprel ayında Aİ-nin dəstəyi ilə istifadə istifadəyə planlaşdırılır.

DAHA GÜCLÜ İQTİSADİYYAT



ƏSAS NAİLİYYƏTLƏR

4 İnvestisiya və biznes mühitin yaxşılaşdırılması və kiçik və orta ölçülü müəssisələrin (KOM-lar) iqtisadi inkişafa töhfə vermək potensialının üzə çıxarılması

- ✓ **18 mindən çox** kiçik və orta müəssisə (**Dərin və Hərtərəfli Azad Ticarət Zonasına daxil olan ölkələrdəki (DHATZ-lar)** KOM-ların **təxminən 70%-i**) 2016-cı ildən etibarən Aİ-nin maliyyə yardımından yararlanmaqdadır. Nəticədə 90 mindən artıq yeni iş yeri yaradılıb və ya qorunub saxlanılıb.
- ✓ **420 biznesə dəstək təşkilatı** EU4Business təşəbbüsü çərçivəsində Aİ-nin yardımından yararlanıb
- ✓ **KOM-lara dair siyasət indeksi,** təşkilati bazada və sahibkarlıqla məşğul olan insan kapitalında nəzərə çarpan irəliləyiş olmaqla 2020-ci ildə müsbət irəliləyişlər (2016-cı il ilə müqayisədə 18% yüksəlmə) qeydə

5 Maliyyə və maliyyə infrastrukturuna çıxış sahəsində boşluqların aradan qaldırılması

- ✓ 2016-cı ilin sonundan etibarən icra olunmağa başlayan maliyyəyə çıxışa dair yeni proqramlara ayrılan 350 milyon avro maliyyə vəsaitinin təxminən **50%-i yerli valyuta ilə kreditləşmə** üçün səfərbər edilib.
- ✓ Struktur islahat proqramı KOM-ların maliyyələşdirilməsi üçün **qeyri-bank alternativlərin** yaradılması məqsədilə fəaliyyət planlarının hazırlanmasına dəstək vermişdir.
- ✓ **Kredit reyestri** bütün ŞT ölkələrində mövcuddur.

6 Yerli və regional səviyyədə yeni iş yerlərinin yaradılması

- ✓ 2016-cı ildən etibarən ŞT ölkələrində **300-dən artıq yerli hökumət qurumu** yerli iqtisadi inkişafa dair planlar təqdim etməyi öhdəsinə götürmüşdür (və onlardan **180-i artıq bu cür planlar hazırlamışdır**) və yerli iqtisadi inkişafla əlaqədar **16 şəhər üzrə nümayiş layihəsinin** icrasına başlanılıb.
- ✓ Aİ yardımlarının təsirinin və daha böyük kütləyə çatdırılmasını maksimum səviyyəyə qədər artırmaq üçün **beş ŞT ölkəsində 12 hədəf region** seçilmişdir.
- ✓ Altı ŞT ölkəsindən beşi **ağıllı ixtisaslaşma** sahəsinə marağını ifadə etmişdir, **Ukrayna və Moldova** strategiyalar tərtib etməklə öndədirlər, **Gürcüstan, Ermənistan** və **Belarus** üçün yeni ağıllı ixtisaslaşma tədbirləri hazırlanır.

7 Rəqəmsal bazarların uzlaşdırılması

- ✓ Tərəfdaş ölkələr 2019-cu ildə ortaq yol xəritəsi qəbul ediblər və rouminq tariflərini azaltmaq üçün **2020-ci ildə Regional Rouminq Sazişini imzalamağı öhdələrinə götürüblər**.
- ✓ Bütün tərəfdaş ölkələr, oxşar Aİ strategiyalarına uyğun olaraq **Genizolaqlı rabitəyə dair milli strategiyalar** hazırlayır.
- ✓ Transsərhəd 700 MHz tezlik diapozonunun istifadəyə verilməsi ilə bağlı əlaqələndirmə işlərinə başlanılıb və **Gürcüstan, Moldova və Belarusda** bu istiqamətdə müəyyən irəliləyişlər əldə olunub.

8 Tərəfdaş ölkələr arasında və tərəfdaş ölkələr ilə Aİ arasında regionlararası ticarətə dəstək

- ✓ 2015-ci ildən etibarən Aİ-yə ixrac edən **DHATZ ölkələrindən olan şirkətlərin** sayı əhəmiyyətli dərəcədə artmışdır: **Gürcüstan 46%, Moldova 48% və Ukrayna 24%.**
- ✓ **Ermənistan** ilə **27%**, **Azərbaycan** ilə **55%**, **Belarus** ilə **40%**, **Gürcüstan** ilə **7%**, **Moldova** ilə **42%** və **Ukrayna** ilə **50%** olmaqla 2016-cı ildən 2019-cu ilə qədər olan dövr ərzində ŞT ölkələri ilə Aİ arasında ticarətin həcmi **artmışdır**.
- ✓ 2016-cı ildən 2018-ci ilə qədər olan dövr ərzində altı ŞT ölkəsi arasında **regionlararası ticarətin** həcmi 51% **artmışdır.**

DAHA GÜCLÜ İQTİSADİYYAT

FƏALİYYƏT PRİORİTETLƏRİ

- KOM-lar üçün maliyyələşmə mənbələrinin təmin edilməsi
- İnformasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsindəki startapların inkubasiya və ilkin sürətləndirilməsi, həmçinin innovasiya, sahibkarlıq və yaradıcılıq sahəsində bacarıqların inkişafı
- Elektron imza, elektron ticarət, elektron kommersiya, elektron gömrük və elektron logistika
- Regionlararası ticarət və ticarətə dair razılaşmaların tam icrası
- Yaxın illərdə malların ticarəti sahəsində rəsmiyyətliliyin sadələşdirilməsinə dair Konvensiyaya qoşulmaq üçün aparılan danışıqlarda razılaşdırılmış səylər tələb olunur.

UĞUR HEKAYƏLƏRİ

Moldova və Belarusda kiçik müəssisələrə sərmayələrin yatırılması ilə insanların həyat və şəraitinin yaxşılaşdırılması

Moldovanın paytaxtı Kişinyovda yerləşən hidravlik mühəndislik üzrə ixtisaslaşan şirkətlərdən biri 2016-cı ildə Aİ tərəfindən maliyyələşdirilən investisiya krediti almağa müvəffəq olub. Aİ layihəsi çərçivəsində həmin kredit Durleşti çayının yatağının təmizlənməsi üçün yüksək fəaliyyət göstəricilərinə malik avadanlıqların alınmasına yönəldilmişdir. Bu tədbirlər nəticəsində çayın deqradasiyasının qarşısı alınıb, həmin ərazi investisiya üçün daha cəlbedici olub və çayın yaxınlığında yaşayan 1000 insanın həyatı yaxşılaşıb.

2018-ci ildə Aİ, **Belarusda**, ən son üçölçülü holoqrafik təsvir (3D) sistemində ixtisaslaşan kiçik bir şirkətə dəstək verib. Bu sistem tamaşaçılara havada görünən 3D videoları yaratmağa, idarə etməyə və nümayiş etdirməyə imkan verən nəfəskəsici bir təcrübə yaşadır. Aİ bu şirkətə idarə etmə işində səmərəliliyi və məhsuldarlığı artırmağa kömək edib. Bunun nəticəsində şirkət məhsuldarlığı artıraraq 150 iş yeri yaratmağa və ya qoruyub-saxlamağa müvəffəq olmuşdur. Məhsullarını beynəlxalq ticarət markalarına çatdıran və dünya bazarlarına çıxan həmin şirkət müxtəlif sektorlarda, o cümlədən təhsil və tibbdə interaktiv holoqramlardan istifadə yollarını araşdırır.

DAHA GÜCLÜ İDARƏÇİLİK

ƏSAS NAİLİYYƏTLƏR

9 Qanunun aliliyi və korrupsiyaya qarşı mexanizmlərin gücləndirilməsi

- ✓ **Ermənistan**, **Azərbaycan**, **Gürcüstan**, **Moldova** və **Ukraynada** müxtəlif müsadirə rejimlərini əhatə edən **müsadirə** üzrə qanunvericilik bazaları mövcuddur.
- ✓ Aktivlərin bəyan edilməsi və maraqların ziddiyəti üzrə sistemlər **Ermənistan, Gürcüstan, Moldova və Ukraynada** mövcuddur.
- ✓ **Ukraynada Korrupsiyaya Qarşı Ali Məhkəmə** yaradılıb və beynəlxalq ekspertlərlə əməkdaşlıq çərçivəsində bu məhkəmə üçün hakimlər seçilib.

10 Məhkəmə sistemində mühüm islahatların həyata keçirilməsi

- ✓ Hakimlərin və prokurorların işlərini izləyən sistemin yaradılması istiqamətində ilkin addımlar atılıb. Buraya **Gürcüstan** prokurorları üçün onlayn qiymətləndirmə sisteminin yaradılması və **Ermənistan** və **Ukraynada** planlaşdırılan iş və ya təşəbbüslər daxildir.
- ✓ **Ermənistan** ədliyyə sektorunda yeni hərtərəfli islahat strategiyasını qəbul etməklə ədliyyə sektorunda strateji bazasını inkişaf etdirmişdir.

11 Dövlət idarəçiliyində islahatların (PAR) icrasına dəstək

- ✓ **PAR strategiyaları Gürcüstan, Moldova** və **Ukraynada** "Dövlət idarəçiliyi prinsiplərinə" uyğun olaraq hazırlanmışdır. **Ermənistan** "Dövlət idarəçiliyi prinsiplərinə" uyğun olaraq ilk baza qiymətləndirilməsi həyata keçirmişdir.
- ✓ **Altı ŞT ölkəsinin** hamısında dövlət qurumlarını daha əlçatan və xidmət yönümlü hala gətirən **vahid pəncərə** prinsipi ilə çalışan xidmət mərkəzi və **elektron hökumət xidmətləri** təqdim edilmişdir.
- ✓ **Ermənistan**, **Gürcüstan** və **Ukraynada** vətəndaş cəmiyyəti ilə yüksək səviyyəli dialoq sayəsində ŞT ölkələri vətəndaşlarının qərarların qəbul edilməsi prosesində iştirakı artırılmışdır. Bu, ŞT ölkələrində daha açıq və hesabatlı dövlət idarəçiliyinin formalaşmasına yol açmışdır.

12 Təhlükəsizliyə dair əməkdaşlığın gücləndirilməsi

- ✓ **Gürcüstan, Moldova və Ukrayna** kibercinayətkarlığa dair strategiya və fəaliyyət planları qəbul ediblər. Onların Budapeşt Konvensiyası ilə tam uyğunlaşdırılmamasına baxmayaraq, **altı ŞT ölkəsinin hamısında kibercinayətkarlığa qarşı ixtisaslaşmış bölmələr** yaradılıb
- ✓ ŞT ölkələri və Europol arasında **birgə araşdırmaların** sayı artıb.
- ✓ **Moldova və Gürcüstanda hibrid təhlükələrə dair** sorğular keçirilib
- ✓ Daşqın risklərinin idarə olunması və təbii fəlakətlər və mülki müdafiə könüllülüyü haqqında məlumatlılığı artırmaq üçün **beş regional təlimat və vasitələr** hazırlanmışdır.

DAHA GÜCLÜ İDARƏÇİLİK

FƏALİYYƏT PRİORİTETLƏRİ

- Regionda yüksək səviyyəli korrupsiya və mürəkkəb korrupsiya ilə mübarizə, eləcə də korrupsiyaya qarşı təşkilati bazanın yaradılması. Bu baza korrupsiya hallarının qeydiyyatı, maliyyə cinayətlərinin səmərəli araşdırılması vasitələrindən istifadə və faydalı mülkiyyət üzrə bütün reyestr məlumatlarının ictimaiyyətə açıq olmasını əhatə etməlidir.
- Xidmət göstəriciləri əsasında işə qəbul, baxılmamış işlərin sayının azaldılması və mülki və inzibati hallarda qərarların icrası
- Mütəşəkkil cinayətkarlıq ilə mübarizə
- Mühüm əhəmiyyət daşıyan infrastrukturu gücləndirmək üçün kibertəhdidlər daxil olmaqla hibrid təhdidlərə qarşı mübarizə.

UĞUR HEKAYƏLƏRİ

Ukraynada korrupsiya ilə mübarizə

2019-cu ilin sentyabrında **Ukraynada** Korrupsiyaya Qarşı Ali Məhkəmə yaradılıb və məqsədi yüksək vəzifəli rəsmi şəxslər və siyasətçilərə qarşı açılan mürəkkəb, yüksək səviyyəli korrupsiya hallarına baxılmasıdır. Bu yüksək səviyyəli korrupsiya halları Ukrayna Milli Antikorrupsiya Bürosu (NABU) tərəfindən araşdırılır və ixtisaslaşdırılmış prokurorluq tərəfindən mühakimə olunur. Aİ-nin yardımı müvafiq qanunvericilik və təşkilati baza üzrə texniki məsləhətlərdən tutmuş, avadanlıqla təmin olunmağa və təlimə qədər dəyişib. Məhkəmə sərt və olduqca şəffaf bir seçim proseduruna uyğun olaraq yaradılıb və bu prosedurlar hazırda Ukraynada digər seçim və yoxlama proseslərində tətbiq olunur. Bu proses indi digər ölkələrin böyük marağına səbəb olur. Məhkəmə hazırda tam fəaliyyətdədir və ilk 38 hakim beynəlxalq müstəqil ekspertlər tərəfindən seçilib. Məhkəmə artıq təqsirin etirafı əqdi ilə bağlı iki işlə əlaqədar öz qərarını vermişdir və yaxın aylarda geniş ictimaiyyətə açıqlanan işlərlə bağlı intensiv dinləmə cədvəli ilə daha çox qərarın qəbul ediləcəyi gözlənilir.

Azərbaycanda dövlət və özəl xidmətlərə çıxış imkanı

Avropa İttifaqının dəstəyi ilə ASAN dövlət agentliyi vasitəsi ilə artıq **Azərbaycanda** dövlət xidmətləri daha əlçatan olmuşdur. ASAN, "bir pəncərə" prinsipinə uyğun olaraq xidmət göstərən 300-dən artıq mərkəzdən ibarətdir: doğum, ölüm və nikahların qeydiyyatı; şəxsiyyət vəsiqələri; pasportlar; sürücülük vəsiqələri; daşınmaz əmlak qeydləri; şirkətlərin qeydiyyatı; və elektron vizalar. ASAN mərkəzləri şəbəkəsi ucqar ərazilərdəki insanlara adı çəkilən xidmətlərə çıxış imkanı təmin edən mobil xidmətlə təchiz edilmişdir. Azərbaycanda dövlət xidmətlərinin çatdırılması və peşəkarlığını yaxşılaşdıran ASAN xidmət, 2015-ci ildə BMT-nin İctimai Xidmət Mükafatına layiq görülüb. Azərbaycan dilində "asan" mənasını verən ASAN, müasir texnologiyaların tətbiqi sayəsində vətəndaşların xidmətlərə daha asan və sürətli çıxışını təmin edərək onların həyatlarını yaxşılaşdırmışdır.

DAHA GÜCLÜ BAĞLANTI



ƏSAS NAİLİYYƏTLƏR

13 Trans-Avropa nəqliyyat şəbəkəsinin (TEN-T) genişləndirilməsi

- ✓ **Trans-Avropa nəqliyyat şəbəkəsinin** (TEN-T) genişləndirilməsinə dair **yüksək səviyyəli anlaşma memorandumları** imzalanıb və əlaqədar Avropa Komissiyasının səlahiyyətli aktı 2019-cu ilin yanvar ayında qüvvəyə minmişdir. **Nümunəvi TEN-T investisiya fəaliyyət planında** prioritet investisiya layihələri müəyyənləşdirilib. TEN-T layihəsinin icrasına kömək edəcək 20 milyon avro dəyərində texniki yardım proqramı təsis edilib.
- ✓ Bütün ölkələrdə **Yol Təhlükəsizliyi haqqında Bəyannamə** qəbul olunub. **Ermənistan, Azərbaycan və Ukraynada Yol Təhlükəsizliyinə dair İnvestisiya Proqramları** təsdiq olunmuşdur.

14 Enerji təchizatının təhlükəsizliyinin artırılması

- ✓ **Cənub qaz dəhlizi** layihəsi başa çatmaq üzrədir və artıq dəhlizə **müxtəlif hissələr** (Cənubi Qafqaz Boru Kəməri, Trans-Adriatik Boru Kəməri və Trans Anadolu Boru Kəmərləri) **qoşulur**; 2019-cu ilin noyabr ayında Yunanıstanda Trans-Anadolu qaz kəmərinin tamamlanması münasibətilə mərasim keçirilib.
- ✓ **Ukrayna** bölüşdürülmə üzrə üçüncü enerji paketinin icrasını başa çatdırıb.

15 Enerjinin səmərəliliyinin və bərpa olunan enerji mənbələrindən istifadənin yaxşılaşdırılması; istixanaların qaz tullantılarının azaldılması (GHGs)

- ✓ **"Bələdiyyə sədrlərinin razılaşması"** təşəbbüsü çərçivəsində **187 yerli hökumət 2020-ci ilə qədər karbon qazı tullantılarını (CO_2) 20%, 240 yerli hökumət** isə həmin tullantıları **2030-cu ilə qədər 30%** azaltmağı öhdəsinə götürüb.
- ✓ E5P Fondu, **8 milyon insanın** faydalanacağı **36 layihəyə 150 milyon avrodan artıq** maliyyə vəsaitini investisiya qrantı qismində ayırıb. Nəticədə ümumilikdə **800 milyon avroya** yaxın sərmayənin istifadəsi mümkün olmuşdur. 2019-cu ildə **Azərbaycanın** adı çəkilən fonda qoşulmasından sonra E5P artıq **bütün altı ölkəni** əhatə edir.
- ✓ **Aİ və Beynəlxalq maliyyə qurumları (BMQ-lər)** tərəfindən qəbul edilmiş **enerji səmərəliliyi ilə bağlı yüksək səviyyəli təşəbbüs Ermənistan, Gürcüstan** və **Ukraynada** siyasi məsuliyyəti artırmışdır. Məsələn, **Ukrayna** yaşayış binaları üçün enerji səmərəliliyi fondu yaratmışdır.
- ✓ **Ukrayna** 2019-cu ilin dekabrında ozon və flüor qazları ilə bağlı normativ-hüquqi aktlar və istixana qazlarının monitorinqi, hesabatı və yoxlanılması haqqında qanun qəbul edib.

16 Ətraf mühit və iqlim dəyişikliyinə uyğunlaşma prosesinə dəstək

- ✓ **Azərbaycan, Belarus, Gürcüstan, Moldova və Ukrayna strategiyaların, planların və investisiya layihələrinin ekoloji cəhətdən qiymətləndirilməsi ilə bağlı yeni qanunlar qəbul edib.**
- ✓ Təbii əraziləri qorumaq və əlaqələndirmək üçün **Belarusda (155 torpaq sahəsi), Gürcüstanda (58 torpaq sahəsi), Moldovada (61 torpaq sahəsi) və Ukraynada (377 torpaq sahəsi)** müəyyən edilib və **"Zümrüd şəbəkəsi"** adlı torpaq sahələri şəbəkəsinə daxil edilib. **Ermənistan** və **Azərbaycan** müvafiq olaraq **23** və **17** torpaq sahəsinin həmin şəbəkəyə daxil edilməsini rəsmiq qaydada irəli sürüb.
- ✓ Aİ-nin maliyyə dəstəyi ilə **500000 km²**-dən ibarət ərazini əhatə edən və regionda yaşayan **30 milyondan artıq** insanın faydalandığı su infrastrukturunun hövzə səviyyəsində müasirləşdirilməsinə dair müasir su siyasətinin təşviqi ilə nəticələnmişdir. 2017-ci ildən etibarən **Ermənistan, Belarus və Moldova** Aİ-nin meyarlarına uyğun olaraq **çay hövzəsinin müasirləşdirilməsinə dair dörd plan** qəbul edib. Zəhərli çirkləndiricilərin insanlara təsirini daha yaxşı izləmək və azaltmaq üçün **bütün ölkələr müasir avadanlıqla** təchiz olunub.
- ✓ Altı ŞT ölkəsinin hamısında **internet əsaslı izləmə vasitəsi** ilə toplanan ətraf mühitə dair məlumatlar, Avropa Ətraf Mühit Agentliyi (EEA) tərəfindən dərc olunur.

DAHA GÜCLÜ BAĞLANTI

FƏALİYYƏT PRİORİTETLƏRİ

- Enerji Birliyi ilə razılığa gələn tərəflərdə qaz ötürmə sistemi operatorlarının bölgüsü daxil olmaqla, qaz və elektrik sahələrində qarşılıqlı əlaqələrin qurulmasına dair layihələr
- Paris Sazişinə uyğun olaraq karbon qazı (CO_2) tullantılarının azaldılmasının monitorinqi və həyata keçirilməsi
- İqlim sahəsində maliyyəyə çıxış imkanı
- İqlim dəyişikliyinə uyğunlaşma
- Ətraf mühitin sağlamlığı

UĞUR HEKAYƏLƏRİ

Gürcüstanda yaşıllığın və ətraf mühitin təhlükəsizliyinin artırılması istiqamətində əməkdaşlıq

Gürcüstanda Aİ tərəfindən maliyyələşdirilən Tbilisi şəhərinin avtobus parkının yenilənməsi layihəsi çərçivəsində şəhər üçün maye qazla çalışan 143 müasir avtobus alınıb. Mavi avtobuslar 1,2 milyon sakin üçün avtobus xidmətlərini yaxşılaşdırmaqla yanaşı, ictimai nəqliyyatın təhlükəsizliyini və səmərəliliyini artırıb. Ekoloji təmiz avtobuslar çirklənməni azaltmaqla bərabər əlilliyi olan insanlar, yaşlı insanlar və uşaqlı valideynləri üçün də əlverişlidir. Nataliya Maziaşvili bu yeni avtobusların xidmətindən çox razıdır: *"İki uşaq anası kimi havanın və ətraf mühitin təmizliyinin böyük əhəmiyyəyə malik olduğunu düşünürəm". "Elə bu səbəbdən bu yeni "yaşıl" avtobuslar çox yaxşı qarşılanır. Onlardan demək olar hər gün istifadə edirəm".*

Moldovada enerjiyə qənaət istiqamətində əməkdaşlıq

Moldovada ilk dəfə Kantemir rayonunda yerləşən uşaq baxçası Avropa standartlarına uyğun qaydada yenilənmişdir. Bu şəhərdə yerləşən dörd təhsil ocağı da Aİ-nin dəstəyi ilə bərpa olunan enerji mənbələrinə keçməyə hazırlaşır. Yenilənmə işlərinə bunlar daxildir: xarici divarların istilik izolyasiyası; biokütlə qazanlarının quraşdırılması; fərdi istilik nəzarət nöqtələrinin əlavə edilməsi; günəş kollektorları və fotoelektrik panellərin quraşdırılması; və daxili işıqlandırma sistemlərinin LED-lərlə əvəz edilməsi. Nəticədə, 50 yaşlı binada indi iqlim dəyişikliyi nəzərə alınmaqla minimum 20% enerjiyə qənaət olunur və 135 uşağın daha yaxşı şəraitdə təhsil almasına şərait yaradılıb.

DAHA GÜCLÜ CƏMİYYƏT

ƏSAS NAİLİYYƏTLƏR

17 Viza rejiminin sadələşdirilməsi və yerdəyişmə üzrə tərəfdaşlıqlarda irəliləyiş

- ✓ **Gürcüstan**, **Moldova** və **Ukrayna Viza rejiminin liberallaşdırılmasına dair fəaliyyət planının** meyarlarının yerinə yetirməyə davam edir. 2020-ci ilin yanvar ayında **Belarus** ilə **viza rejiminin sadələşdirilməsi və readmissiya üzrə razılaşmalar** imzalanıb.
- ✓ **Sərhəd-keçid məntəqələrinin müasirləşdirilməsi** istiqamətində hazırlıq işləri davam edir. Hal-hazırda şəbəkə **Polşa və Ukrayna** arasında və **Moldova və Ukrayna** arasında birgə idarə olunan sərhəd-keçid məntəqələrinin yaradılmasına kömək edir.
- ✓ **Sərhədlərin inteqrasiyalı idarə olunmasına dair strategiyalar** hazırda **demək olar bütün ŞT ölkələrində** tətbiq olunur və struktur əməkdaşlıqlar qurulmuşdur.

18 Gənclərin bacarıqlarının, sahibkarlıq imkanlarının və məşğulluğunun artırılması

- ✓ **EU4Youth Erasmus+** bacarıqların artırılmasına dair proqram vasitəsilə **265 ŞT təşkilatı** ilə çalışan **100 layihənin** maliyyələşdirilməsinə kömək edilib. Bu layihələr **vətəndaş fəallığı və gənclər arasında sahibkarlıq fəaliyyətlərinə dəstəyə yönəlmişdir. EU4Youth** qrantları çərçivəsində **gənclərin məşğulluğu, iş tapmaq bacarığı və iş fəaliyyətinə keçidi** sahələrini əhatə edən altı irihəcmli layihəyə dəstək verilib. Bundan regionda yaşayan **23000 gənc** faydalanıb.
- ✓ **Erasmus+** yerdəyişmə və formal və qeyri-formal təhsilin keyfiyyətinin yaxşılaşdırılmasına yönəlmişdir. 2016-cı ildən etibarən ŞT ölkələrindən **32000 tələbə** və müəllim heyəti **təhsil mübadilələrində** iştirak edib, **46000 gənc** səyahətlər və **könüllülük** fəaliyyəti daxil olmaqla, digər mübadilələrdə iştirak edib, 500-ə yaxın magistr tələbəsi tam Erasmus təqaüdü alıb və **3000-ə yaxın məktəb** və **7600 müəllim eTwinning Plus** platforması vasitəsilə əlaqələndirilib.
- ✓ Bütün ŞT ölkələri insan kapitalının, peşə təhsili və təlim siyasətinin inkişaf etdirilməsini yaxşılaşdırmaq üçün **Peşə təhsili islahatları üzrə Turin prosesi** çərçivəsində struktur dialoqda iştirak edirlər.
- ✓ Ermənistan, Gürcüstan, Moldova və Ukrayna "Yaradıcı Avropa" (**Creative Europe) proqramında iştirak etmək üçün razılaşmalar imzalayıblar.** ŞT-də mədəniyyət sahəsində fəaliyyət göstərən təşkilatlar 44 layihəyə cəlb olunub.

19 İlk ŞT Avropa Məktəbinin yaradılması

- ✓ Tbilisidə 2018-ci ilin sentyabr ayında **ŞT Avropa Məktəbi** açılıb. ŞT ölkələrindən olan **65 şagird** məktəbdə Avropaşünaslıq ixtisası üzrə beynəlxalq bakalavr dərəcəli diplom almaq üçün Aİ tərəfindən maliyyələşdirilən təqaüd alıb. Layihənin **2-ci mərhələsi 2019-cu ildə** Gürcüstanın Təhsil Nazirliyinin nəzdində tam hüquqlu ŞT Avropa Məktəbini yaratmaq məqsədi ilə icra olunmağa başlayıb.

20 ŞT və Aİ tədqiqat və innovasiya sistemləri və proqramlarının inteqrasiyası

- ✓ Dörd ŞT ölkəsi Aİ-nin "Horizon-2020" adlı tədqiqat və innovasiya proqramına qoşulub. Bu dörd ölkədən olan tədqiqat və innovasiya sahəsi üzrə çalışan maraqlı tərəflər həmçinin **Aİ şəbəkələri/platformalarına inteqrasiya olunub**.
- ✓ **Bütün tərəfdaş ölkələrin Horizon 2020-nin fərdi tədqiqatçılar** üçün maliyyələşdirmə proqramlarına çıxış imkanı var və **135** fərdi tədqiqatçı artıq qrantlar almışdır. "**Marie Skłodowska-Curie**" proqramı çərçivəsində **915 ŞT ölkəsindən olan tədqiqatçı** Aİ-nin dəstəyindən yararlanmışdır.
- ✓ Bütün tərəfdaş ölkələrdən olan milli tədqiqat və təhsil şəbəkələri **GEANT** adlı ümumavropa **şəbəkəsinə**, eləcə də Eduroam şəbəkəsinə qoşulub.

DAHA GÜCLÜ CƏMİYYƏT

FƏALİYYƏT PRİORİTETLƏRİ

- Təhsil və tədris metodlarında keyfiyyət
- Fasiləsiz təhsil
- Gənclərin məşğulluğu və beyin axını ilə əlaqədar problemlərin həlli
- Tədqiqat və innovasiya
- Ağıllı ixtisaslaşma və texnologiyalardan istifadə edərək (i) fəaliyyət göstəricilərinin və rəqabətin yaxşılaşdırılması; (ii) regional və yerli iqtisadiyyatların inkişafı.

UĞUR HEKAYƏLƏRİ

İlk ŞT Avropa Məktəbi

2018-ci ilin sentyabrında Aİ-nin hüdudlarından kənarda, daha doğrusu Gürcüstanın paytaxtı Tbilisidə ilk **ŞT Avropa Məktəbi** öz qapılarını bütün altı tərəfdaş ölkələrindən olan 30-dan artıq parlaq zəkaya malik şagirdlərin üzünə açdı. Bu məktəbin şagirdləri yüksək keyfiyyətli təhsil almaqla yanaşı, yeni dillər öyrənir və müxtəlif mədəniyyətlər haqqında məlumat alırlar. Aİ tərəfindən maliyyələşdirilən təqaüd proqramı çərçivəsində məktəbin şagirdləri Avropaşünaslıq ixtisası üzrə Beynəlxalq bakalavr (IB) dərəcəli diplom almaq şansı qazanır. Beynəlxalq bakalavr dərəcəli diplomla təmin edən tədris kursu həmçinin çoxmədəniyyətli mübadilələri və Aİ dəyərlərini təşviq edir. Gənc tələbələr tədris kursunu özləri seçə, ŞT regionundan fərqli insanlarla tanış ola və tədris proqramının bir hissəsi olan könüllülük fəaliyyətlərdə iştirak edə bilərlər. Bu günə qədər 65 tələbə bu təcrübələrdən yararlanıb.

Ermənistanda rəqəmsal təhsilin inkişafına dəstək

Aİ-nin "TUMO" adlı Mühəndislik və Tətbiqi Elmlər üzrə Uzlaşma Mərkəzi **Ermənistanda** 2019-cu ildə açılmışdır. Mərkəzdə gənclərə texnologiya sənayesinin mütəxəssisləri ilə layihə və sənaye əsaslı təlimlər keçirilir. Tədqiqat, təhsil üzrə sahibkarlıq və startaplar üçün mərkəz olaraq müəssisələr və istedadlı insanlar üçün bir inkubator rolunu oynayır. Mərkəzin əsas məqsədi innovasiyaların inkişafına şərait yaratmaq və gələcəyə hesablanmış iş yerləri yaratmaqdır. 15000 kvadrat metrlik mərkəzdə bu sahələr üçün infrastruktur qurulacaq: təhsil proqramları (TUMO laboratoriyaları); Fransa Universitetinin İT və tətbiqi riyaziyyat fakültəsi; proqram mühəndisliyi məktəbi; 42 ortaq tədqiqat obyekti; yüksək texnologiyalı sənaye bölmələri; konfrans mərkəzi; mərkəzin uzunmüddətli həyat qabiliyyətini təmin etmək üçün gəlir gətirən kommersiya sahəsi.

	HƏRTƏRƏFLİ PRAKTİKİ NƏTİCƏLƏR	VƏZİYYƏTİ *(2016-cı ildən etibarən)*	DƏYİŞİKLİK *(03.19 tarixindən etibarən)*
1.	**Vətəndaş cəmiyyəti təşkilatları ilə daha sıx qarşılıqlı əlaqə**	✚✚	⇧
2.	**Gender bərabərliyinin və ayrıseçkiliyə yol verilməməsinin gücləndirilməsi**	✚	≈
3.	**Strateji rabitənin gücləndirilməsi və müxtəlif və müstəqil kütləvi informasiya vasitələrinə dəstək**	✚✚	≈
	DAHA GÜCLÜ İQTİSADİYYAT		
4.	**İnvestisiya və biznes mühitin yaxşılaşdırılması və kiçik və orta ölçülü müəssisələrin (KOM-lar) iqtisadi inkişafa töhfə vermək potensialının üzə çıxarılması**	✚✚	⇧
5.	**Maliyyə və maliyyə infrastrukturuna çıxış sahəsində boşluqların aradan qaldırılması**	✚✚	⇧
6.	**Yerli və regional səviyyədə yeni iş yerlərinin yaradılması**	✚✚	⇧
7.	**Rəqəmsal bazarların uzlaşdırılması**	✚✚	≈
8.	**Tərəfdaş ölkələr arasında və tərəfdaş ölkələr ilə Aİ arasında regionlararası ticarətə dəstək**	✚✚	≈
	DAHA GÜCLÜ İDARƏETMƏ		
9.	**Qanunun aliliyi və korrupsiyaya qarşı mexanizmlərin gücləndirilməsi**	✚	⇧
10.	**Məhkəmə sistemində mühüm islahatların həyata keçirilməsi**	✚	≈
11.	**Dövlət idarəçiliyində islahatların (PAR) israsına dəstək**	✚✚	≈
12.	**Təhlükəsizliyə dair əməkdaşlığın gücləndirilməsi**	✚✚	≈
	DAHA GÜCLÜ ƏLAQƏLƏR		
13.	**Trans-Avropa nəqliyyat şəbəkəsinin (TEN-T) genişləndirilməsi**	✚✚	≈
14.	**Enerji təchizatının təhlükəsizliyinin artırılması**	✚✚	⇧
15.	**Enerjinin səmərəliliyinin və bərpa olunan enerji mənbələrindən istifadənin yaxşılaşdırılması; istixanaların qaz tullantılarının azaldılması (GHGs)**	✚	⇧
16.	**Ətraf mühit və iqlim dəyişikliyinə uyğunlaşma prosesinə dəstək**	✚	⇧
	DAHA GÜCLÜ CƏMİYYƏT		
17.	**Viza rejiminin sadələşdirilməsi və yerdəyişmə üzrə tərəfdaşlıqlarda irəliləyiş**	✚✚	≈
18.	**Gənclərin bacarıqlarının, sahibkarlıq imkanlarının və məşğulluğunun artırılması**	✚✚	⇧
19.	**İlk ŞT Avropa Məktəbinin yaradılması**	✚✚✚	⇧
20.	**ŞT və Aİ tədqiqat və innovasiya sistemləri və proqramlarının inteqrasiyası**	✚✚	⇧

2016-cı ildən bəri icra olunur: tamamlanıb ✚✚✚ **; hazırlanır** ✚✚ **; məhdud irəliləyiş** ✚

2019-cu ilin mart ayından bəri dəyişiklik: dəyişiklik yoxdur ≈ **; irəliləyiş** ⇧